şəxsi həyatı da yarımçıq qaldı. | tokindir.

# 60 yaşlı kitabxana

1941-45-ci illər Böyük Vətən müharibəsi qurtarandan bir il sonra açılan Siyəzən rayon mərkəzi kitabxanasının işçi heyəti doğma müəssisənin 60 illiyini qeyd etməyə hazırlaşır. 1946-cı ildə fəaliyyətə başlayan və ötən neçə onilliklərdə rayon əhalisinin mədəni xidmətində dayanan bu sənət məbədinə veteran, mədəni-maarif xadimi Nuriyyə xanım Mövsümova rəhbərlik edir. Ötən il 65 yaşı qeyd olunan Nuriyyə xanım yubileyi ərəfəsində Mədəniyyət Nazirliyinin Fəxri Fərmanına və pul mükafatına layiq görülmüşdür.

Siyəzən rayon mərkəzi kitabxanasında oxucuların, bilik məbədinə qədəm qoyan müsafirlərin diqqətini yeni kitab sərgiləri cəlb edir: "C.Məmmədquluzadə-140", "Molla Nəsrəddin"-100", "S.Vurğun-100", "S.Rüstəm-100" və "Yeni kitablar".

Azərbaycan Respublikası prezidenti İ.Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan ədəbiyyat nümunələri sərgilərdə önəmli yer tutur.

Böyük demokrat C.Məmmədquluzadəyə həsr olunan sərgidə "Klassik Azərbaycan ədəbiyyatı" seriyasından yazıçının 4 cildlik əsərləri və seçilmiş əsərləri, "Mirzə Cəlil və Məmmədquluzadəçilər" (Məktublaşma) kitabları ilk növbədə diqqəti çəkir.

"Müasir Azərbaycan ədəbiyyatı" seriyasından xalq şairi S.Vurğunun 5 cildlik, xalq şairi S.Rüstəmin 3 cildlik seçilmiş əsərləri də, onlara həsr olunan sərgilər də nəzərdiqqəti cəlb edirlər.

Dünya poeziyasının əbədiyyət günəşi N.Gəncəvi, XX əsr müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Ə.Cavad, A.İldırım, Ə.Kərim, M.Araz, Ə. Əlibəyli, Ə.Kürçaylı, N.Kəsəmənli, N.Həsənzadə və Anar... Klassik və müasir Azərbaycan ədəbiyyatını təmsil edən sənət nümayəndələrinin kitabları "Yeni kitablar" sərgisində düzülmüşlər. "Azərbaycan xalq ədəbiyyatı" seriyasından "Azərbaycan bayatıları" və "El çələngi" kitabları, "Yeni kitablar" sərgisində "Yeni nəşrlər" kataloq-jurnalının müxtəlif nömrələri yer tuturlar.

Kitablar aləmində...

Bu aləmə bağlı ömür sahibi, "irfan dünyası"nın "bələdçisi" Nuriyyə xanım mərkəzi rayon kitabxanasına daxil olmuş ədəbiyyat, yeni kitablar barədə daha ətraflı məlumat verir:

-2005-ci ildə kitabxanamıza 11.000 kitab Prezident hədiyyəsi olmuşdur. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasından 200-ə yaxın kitab hədiyyə almışıq. Respublika Kitabxana Kollektorundan 100-dən yuxarı kitab verilmişdir.

Qarabağ şəhidi Nizami Həmzəyevin adını daşıyan Siyəzən rayon mərkəzi kitabxanası gündəlik qayğılarıyla yaşayır, müəssisə kollektivi rayonun mədəni həyatına "öz salnaməsini yazır".

***Tahir SƏLİMOV***